Əziz xanımlar, bayramınız mübarək!

09 (1315) 7-13 mart 2024-cü il

# İQTİSADIYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## “BİZİM SÖZÜMÜZ İMZAMIZ QƏDƏR DƏYƏRLİDİR”




Bu sözləri Prezident İlham Əliyev Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu iclası və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclasında söyləyib.

O, deyib: *“Hesab edirəm ki, Azərbaycan etibarlı tərəfdaş olduğunu artıq sübut edib. Bizim sözümüz imzamız qədər dəyərlidir. Əminəm ki, qarşımıza qoyduğumuz bütün planlar həyata keçiriləcəkdir, çünki təkcə keçən ilin göstəriciləri bunun sübutudur. Bizim enerji layihələrimizlə bağlı daha bir məqam ondan ibarətdir ki, dost Birləşmiş Ərəb Əmirliklərini təmsil edən ADNOC şirkəti Abşeron layihəsinin səhmdarı oldu. Biz bunu alqışlayırıq, heyətimizə xoş gəlmisiniz. Bu, əlavə maliyyələşmə, təcrübə deməkdir və beynəlxalq əməkdaşlığı genişləndirəcəkdir. Bizimlə birgə çalışmaq arzusunda olan enerji şirkətlərindən çoxsaylı müraciətlər daxil olur. Bu müraciətlər həmin şirkətlərin fəaliyyət göstəricilərinə və bizim enerji gündəliyimizə əsasən nəzərdən keçirilir”.*

## “ABŞERON” QAZ-KONDENSAT YATAĞI BİZİM GƏLƏCƏK ŞAXƏLƏNDİRMƏ LAYİHƏLƏRİMİZİN RESURS BAZASINI TƏŞKİL EDƏCƏK”

“Ötən il baş verən vacib hadisələrdən biri Xəzər dənizinin Azərbaycana məxsus sektorunda, “Abşeron” qaz-kondensat yatağında təbii qazın kommersiya hasilatı oldu. Bu “Şahdəniz”dən sonra ikinci nəhəng qaz ehtiyatlarının kəşfi deməkdir”.

Bu sözləri Prezident İlham Əliyev Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu iclası və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclasında söyləyib.

“Abşeron” layihəsinin ilk fazası artıq təsdiq edilib. Biz orada illik hasilatın 1.5 milyard kubmetr həcmində olmasını gözləyirik. İkinci faza ilə bağlı razılıq əldə edildikdən sonra daha 4-5 milyard kubmetr həcm əlavə ediləcəkdir ki, onun böyük əksəriyyəti beynəlxalq bazarlara nəql olunacaq”, - deyə o, əlavə edib.

## “BU GÜN AZƏRBAYCAN 8 ÖLKƏYƏ QAZ NƏQL EDİR Kİ, ONLARDAN ALTISI AVROPA ÖLKƏSİDİR”




“Növbəti nailiyyət hesab etdiyim bir hadisə Azərbaycanın daha iki ölkə - Macarıstana və Serbiyaya qaz nəql etməsi oldu. Beləliklə, bizim Avropaya qaz təchizatımızın coğrafiyası genişlənmiş oldu”. Bu sözləri Prezident İlham Əliyev Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu iclası və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclasında söyləyib.

O, deyib: *“Ötən il Avropada istifadəyə verilmiş interkonnektor layihələrinin təməlində, ilk növbədə, Cənub Qaz Dəhlizi layihəsi dayanır. İkincisi isə onlar bizə Avropada mümkün qədər çox məntəqələri əhatə etməklə bağlı səylərimizi davam etdirməyə imkan verəcəkdir. Azərbaycan qazına olan mövcud tələbat var, ixtiyarımızda mənbələr var və nəqliyyat marşrutlarımız yerindədir. Yeri gəlmişkən, onu da deyim ki, ötən il ərzində türkiyəli dostlarımızla fəal kommunikasiya nəticəsində biz Türkiyə vasitəsilə Trans-Balkan boru kəməri sistemindən istifadə etmək razılığına gəldik. Bu isə şaxələndirmə layihəsi daxilində növbəti şaxələndirmə deməkdir. Daha artıq alternativlər və seçimlər ola bilər. Çünki onların hər biri enerjinin şaxələndirilməsi, enerji təhlükəsizliyinin maksimum səmərəliliklə təmin olunması kimi vahid məqsədə xidmət edir”.*

## “BİZ GƏLƏN İLİN İLK RÜBÜNDƏN ETİBARƏN “AZƏRİ-ÇIRAQ-GÜNƏŞLİ” DƏRİN QAZ LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ TƏBİİ QAZIN HASİLATINI GÖZLƏYİRİK”

Bu sözləri Prezident İlham Əliyev Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu iclası və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclasında söyləyib.

O, bildirib: *“Bu, çox böyük ehtiyata malik olmaqla ümidverici strukturdur. Uzun illərdir ki, “Azəri-Çıraq-Günəşli” bizim neft ixracımızın əsas mənbəyidir.*

*Hazırda kəşfiyyata başlanılması ilə bağlı tərəfdaşlarımızla razılığa gəlmişik və bu əlavə töhfə olacaqdır. İlkin mərhələdə hasilat təqribən yarım milyard kubmetr olacaq, ancaq bir neçə il ərzində bu rəqəm 3-4 dəfə artacaqdır. Bu “Şahdəniz” və “Abşeron” yataqlarından hasil ediləcək həcmlərlə yanaşı, yeni mənbə olacaqdır”.*

Bununla yanaşı, bizim “Ümid” qaz-kondensat yatağının ikinci fazasının işlənilməsi ilə bağlı planlarımız var ki, potensial olaraq oradan da 3-4 il ərzində 2-3 milyard kubmetr qaz əldə etmək olar.

## RUSİYA FEDERASİYASI HÖKUMƏTİNİN SƏDRİ MİXAİL MİŞUSTİN BAKIDA SƏFƏRDƏDİR



Ölkəmizdə səfərdə olan Rusiya Federasiyası Hökumətinin sədri Mixail Mişustin martın 6-da Fəxri Xiyabana gedərək, xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla anıb, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsini yad edib və Şəhidlər Xiyabanını ziyarət edib.

Martın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyası Hökumətinin sədri Mixail Mişustin ilə görüşü olub.



# "Bu gün Avrasiyadakı geosiyasi vəziyyət bizim görəcəyimiz işlərin vacibliyini göstərir"

"Şaxələndirmə haqqında danışdıqda bizim mövqeyimiz hər zaman belə olub və indi də belədir ki, şaxələndirmə nəinki təchizat marşrutlarının, həmçinin mənbələrin şaxələndirilməsi olmalıdır. Bu gün Avrasiyadakı geosiyasi vəziyyət bizim görəcəyimiz işlərin vacibliyini göstərir". Bu sözləri Prezident İlham Əliyev martın 1-də Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu iclası və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclasında deyib.

# "Azərbaycana COP29-a sahiblik edən ölkə olmaq şərəfi nəsib olmuşdur"

Bu sözləri Prezident İlham Əliyev martın 1-də Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu iclası və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclasında deyib.

**O, bildirib:** "Keçən ilin dekabrında qərar qəbul olunan kimi biz dərhal, yalnız bir səbəbdən müxtəlif QHT-lər və media təşkilatlarının hücumuna məruz qaldıq. Çünki bizim neftimiz var və bu, bizim ən böyük nöqsanımız hesab olunmuşdur. Baxmayaraq ki, qeyd etdiyim kimi bu, qüsur deyil, Allahdan bir hədiyyədir. Lakin bizə hücum edərək dedilər ki, necə ola bilər qazıntı yanacağı ilə zəngin olan bir ölkə COP-a ev sahibliyi edə bilər. Gəlin, bu məsələyə başqa bir bucaq altında baxaq. Bəli, bizim kifayət qədər neftimiz, kifayət qədər qazımız var. Biz növbəti 100 il ərzində bərpaolunan enerji resursları olmadan yaşaya bilərik. Bizim bütün ehtiyatlarımız təsdiq edilib və hər kəs bunu bilir.

Lakin iqlim dəyişikliyi ilə bağlı olan bu qlobal tədbirə ev sahibliyi etmək istəyimizin olması faktı bizim iradəmizi nümayiş etdirir. Bizə buna görə hücum edilməməlidir, biz təqdir edilməliyik.

Biz heç bir yanlış iş görməmişik, lakin qərar qəbul olunan kimi bizə qarşı dərhal əlaqələndirilmiş, konsolidasiya olunmuş və çox ədalətsiz hücum edildi.

Əvvəlki illərdə Azərbaycana qarşı çoxlu hücumlar olmuşdur, biz buna adət etmişik, biz özümüzü müdafiə edə bilərik. Lakin mən sizə, sadəcə, məlumat vermək istəyirəm ki, COP29-un Azərbaycanda təşkil edilməsi qərarı, yekdil qərar beynəlxalq birliyin ölkəmizə hörmətinin əlamətidir və bizim tədbirə ev sahibliyi etmək, bu işə töhfə vermək istəyimiz yaşıl gündəliyimizi nümayiş etdirir".

# Gələn il "Azəri-Çıraq-Günəşli"də təbii qaz hasilatı başlayacaq

"Növbəti ilin birinci rübündə dərinsulu "Azəri-Çıraq-Günəşli" layihəsində təbii qaz hasilatı başlayacaq. Bu, çox perspektivli bir layihədir". Bu sözləri Prezident İlham Əliyev Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu iclası və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclasında söyləyib. "Azəri-Çıraq-Günəşli"nin uzun müddət neft ixracımızın əsas mənbəyi olduğunu söyləyən dövlətimizin başçısı deyib ki, bu, "Şahdəniz" və "Abşeron"dan başqa, bizim qaz təchizatımıza əlavə mənbə olacaq.

# Cənub Qaz Dəhlizi uğur hekayəsidir

"Cənub Qaz Dəhlizi artıq üç ildir işləyir. Bu, uğur hekayəsidir. Bu, Avrasiya məkanında mühüm infrastruktur layihələrindən biridir". Bu fikirləri Prezident İlham Əliyev Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu iclası və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclasında səsləndirib. Bunun, eyni zamanda, enerji təhlükəsizliyi, əməkdaşlıq layihəsi olduğunu vurğulayan dövlətimizin başçısı qeyd edib: ***"Çünki bu marşrut üzərində yerləşən ölkələr arasında işbirliyi olmadan bu layihəni həyata keçirmək mümkün olmazdı".***

# Azərbaycan özünü etibarlı tərəfdaş kimi doğruldub

"Azərbaycan özünü etibarlı tərəfdaş kimi doğruldub. Bizim sözümüz imzamız qədər eyni qüvvəyə malikdir".

Bu sözləri Prezident İlham Əliyev Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu iclası və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclasında söyləyib.

***"Biz yeni təşəbbüslər irəli sürmüşük və əminəm ki, onlar həyata keçiriləcək"***, - deyən dövlətimizin başçısı vurğulayıb ki, təkcə ötən ilin nəticələri bunu nümayiş etdirir.

# "Azərbaycanın bərpa olunan enerji layihələri gündəliyi çox iddialıdır"



"Azərbaycanın bərpa olunan enerji layihələri gündəliyi çox iddialıdır".

Bu sözləri Prezident İlham Əliyev martın 1-də Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclasları zamanı "Euronews" televiziyasına müsahibə verərkən deyib. Dövlətimizin başçısı qeyd edib: ***"Beynəlxalq Maliyyə Korporasiyasının hesablamalarına əsasən, Xəzər dənizinin Azərbaycan sektorunda potensial 157 giqavat təşkil edir. Biz artıq bu mühüm yolu qət etməyə başlamışıq. Biz ola bilsin ki, 10 ilə ölkədə bərpaolunan enerjidən maksimum dərəcədə istifadə etməyi və daxili bazarda təbii qaz istehlakını azaltmağı planlaşdırırıq".***

# Xunta rejiminin işğal dövründə Xankəndidə inşa etdiyi binalar sökülür

Məlum olduğu kimi, XIX əsrdən etibarən işğalçılıq niyyətlərini həyata keçirən və tarixi Azərbaycan torpaqlarında "böyük Ermənistan" xülyasını reallaşdırmaq üçün müxtəlif çirkin yollara əl atan ermənilər, həmçinin türk xalqlarına qarşı amansız soyqırımları törətmişlər. XX əsrin sonlarına yaxın Ermənistanda Azərbaycana qarşı separatçılıq meyilləri genişmiqyaslı hərbi toqquşmalarla müşayiət olundu. Bəzi Qərb ölkələrinin, qlobal güc dairələrinin, xristian mərkəzlərin köməyi ilə davam edən bu hərbi təcavüz Azərbaycanın suveren ərazilərinin - Qarabağın və Şərqi Zəngəzurun işğal altına düşməsi ilə nəticələndi. Dövlətçilik ənənələri olmayan ermənilər bununla da Qafqazda özlərinə dövlət qurmaq üçün separatizm, terrorizm və vandalizm yolunu seçərək türk xalqlarının gələcəyinə kölgə salmağa çalışırdılar. Otuz illik işğaldan azad edilmiş ərazilərimizdə bu gün Ermənistan silahlı qüvvələrinin vandallığının izlərini açıq-aydın görmək mümkündür. Onlar işğal etdikləri ərazilərdə bu müddət ərzində nəinki quruculuq işləri aparmamış, əksinə bu bölgədəki bütün mədəniyyət abidələrini, qəbirləri, evləri, məscidləri dağıtmış, təbiətə ciddi zərər vurmuş, tərk etdikləri ərazilərə isə minalar döşəmişlər. Bu kütləvi vandalizm aktları Ermənistandakı etnik psixoloji vəziyyəti özündə ehtiva edir. Məkrli qonşularımızın işğal illərində əzəli torpaqlarımızda erməni arxitekturası əsasında inşa etdikləri binalar onların həmin ərazilərə sahib çıxmaq niyyətini əks etdirir. Odur ki, xunta rejiminin işğal dövründə Xankəndidə inşa etdiyi binaların sökülməsinə başlanılıb.

Separatçı xunta rejiminin Xankəndi şəhərində 1994-cü ildə inşa etdiyi və 2009-cu ildə yenidənqurma işləri apardığı parlament binasının Azərbaycan Hökumətinin göstərişinə əsasən sökülməsinə başlanılıb.

Mənfur düşmənin daha bir tikilisi – üstdən baxdıqda xaç formasında inşa edilmiş "veteranlar" binasının da sökülməsi işlərinə başlanılıb.



# Azərbaycanın üzləşdiyi mina təhlükəsi Britaniya parlamentində müzakirə olunub

Britaniya parlamentində Azərbaycanın üzləşdiyi mina təhlükəsi barədə məlumatlılığın artırılması məqsədilə tədbir keçirilib.




Britaniya parlamentində fəaliyyət göstərən Partlayıcı qurğulardan qaynaqlanan təhlükələr qrupu və mina qurbanlarına uzun müddətli dəstək məsələlərini təşviq edən REVIVE adlı qeyri-hökumət təşkilatının Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) və Azərbaycanın Britaniyadakı səfirliyinin dəstəyi ilə təşkil etdiyi tədbir "Azərbaycanda mina fəaliyyəti və mina qurbanlarına yardım" mövzusuna həsr olunub.

Tədbirdə Britaniya parlamentinin, Britaniya Xarici İşlər Nazirliyinin və Müdafiə Nazirliyinin nümayəndələri, britaniyalı akademik və ekspertlər, minalardan təmizləmə məsələləri ilə məşğul olan təşkilatların üzvləri və media təmsilçiləri iştirak ediblər.

Azərbaycanın Britaniyadakı səfiri Elin Süleymanov 30 illik işğal və hətta ondan sonrakı dönəmdə Ermənistanın Azərbaycan ərazilərində minlərlə mina basdırması və bunun ağır humanitar nəticələrindən bəhs edib. İşğaldan azad olunmuş ərazilərin minalardan təmizlənməsinin regionda sülhün əldə edilməsi üçün vacib amillərdən biri olduğunu deyən səfir Süleymanov bu istiqamətdə göstərdiyi maliyyə və ekspert dəstəyinə görə Britaniya hökumətinə təşəkkür edib. Minaların təkcə insan həyatı üçün deyil, ətraf-mühit üçün də zərərli olduğunu bildirən səfir təhlükənin bu aspektinə diqqət çəkmək üçün Azərbaycan tərəfindən atılacaq addımlar, o cümlədən bu il Bakıda keçiriləcək COP29 tədbiri çərçivəsində mövzu üzrə keçirilməsi planlaşdırılan yan tədbir barədə məlumat verib. Ötən ilin iyun ayında ANAMA-nın müxtəlif beynəlxalq tərəfdaşlar, o cümlədən "Mine Advisory Group" ilə tərəfdaşlıq nəticəsində Azərbaycanda ilk qadın minatəmizləmə qruplarının yaradılması üçün təlimlərin keçirilməsinə istinad edən səfir bu məqamı ölkə gündəmi üçün bütün vacib məsələlərdə qadınların roluna verilən əhəmiyyət kimi xüsusi vurğulayıb.

Parlamentdə fəaliyyət göstərən Partlayıcı qurğulardan qaynaqlanan təhlükələr qrupunun sədri, İcmalar Palatasının deputatı Matthew Offord qeyd edib ki, həddindən artıq ağır və çətin təhlükə olmasına baxmayaraq minalar məsələsinə beynəlxalq diqqətin lazımı səviyyədə olmaması təəssüf doğurur.

Daha sonra ANAMA İdarə Heyəti sədrinin müavini Samir Poladov "Mina çirklənməsi və onun dayanıqlı inkişafa təsirləri" mövzusunda təqdimatla çıxış edib.

# Rəqabət Məcəlləsinə dair müzakirələr aparılıb



İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətində Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının (ASK) rəhbər heyəti və üzvləri ilə görüş keçirilib.

Dövlət Xidmətindən bildirilib ki, görüşdə bu il iyulun 1-dən qüvvəyə minəcək Rəqabət Məcəlləsinin tətbiqi və onun biznes mühitinə təsirləri barədə müzakirələr aparılıb.

Dövlət Xidmətinin rəisi Məmməd Abbasbəyli dövlət-özəl tərəfdaşlığı çərçivəsində biznes subyektləri ilə genişlənən əlaqələrin sosial-iqtisadi artıma töhfə verdiyini vurğulayıb. Qeyd edilib ki, özündə inhisarçılıq və haqsız rəqabət halları ilə mübarizənin hüquqi əsaslarını ehtiva edən Rəqabət Məcəlləsi sahibkarlığın inkişafını stimullaşdıracaq.

Bundan əlavə, "Rəqabətin inkişafı və inhisarçılıq fəaliyyətinin qarşısının alınmasına dair Milli Fəaliyyət Proqramı"nın da kiçik və orta biznes subyektlərinin bazara sərbəst girişinə manea yaradan amillərin aradan qaldırılmasına xidmət edəcəyi vurğulanıb.

ASK-nın prezidenti Məmməd Musayev öz növbəsində milli iqtisadiyyatın gücləndirilməsində biznes subyektlərinin rolundan söz açıb. Qeyd edilib ki, dövlət-özəl dialoqu çərçivəsində həyata keçirilən layihələr ölkədə biznes mühitinin daha da təkmilləşdirilməsində mühüm əhəmiyyət kəsb edir.

> **“Siz uzun illərdir ki, Azərbaycan elminin inkişafında çox önəmli rol oynayırsınız, həm sovet dönəmində, həm müstəqillik dövründə. Siz böyük alimsiniz, böyük təşkilatçısınız. Azərbaycanda elmi kadrların hazırlanmasında da çox böyük işlər görmüsünüz”.**
>
> **Prezident İlham Əliyev**

# Böyük alim, elm fədaisi, gözəl insan

**Bu günlərdə Azərbaycanda geologiya elminin inkişafında mühüm xidmətləri olan görkəmli alim və ictimai xadim, Əməkdar elm xadimi, Azərbaycan Dövlət mükafatı laureatı, "Şöhrət", "Şərəf" və "İstiqlal" ordenli akademik Akif Əlizadənin 90 yaşı tamam olub.**

Akif Əlizadə nüfuzlu bir nəslin nümayəndəsidir. Onun ictimai davranışlarına, malik olduğu dəyərlərə mənsub olduğu nüfuzlu nəslin çox böyük təsiri olmuşdur. Alimin bir şəxsiyyət kimi formalaşmasında, erkən yaşlarından kamillik məqamına yüksəlməsində bu amilin çox ciddi təsiri olub.

Akif Əlizadə 1934-cü ilin 25 fevralında Bakının o dövrdə çox məşhur həkimləri Ağamehdi və Əfşan Əlizadələrin ailəsində dünyaya gəlib. Amma bu nəslin tanınmışları təkcə valideynləri deyildi. Akif müəllimin ata babası Axund Ağa Əlizadə zəmanəsinin ən görkəmli dini və ictimai xadimlərindən olmuşdur. 1954-cü ildə dünyasını dəyişmiş Axund Ağa Qafqaz Müsəlmanlarının 8-ci, Azərbaycan Xalq Cümhuriyyətinin isə ilk Şeyxülislamı idi.

Azərbaycanda məşhur olan və hər gün yüzlərlə insanın böyük sevgi ilə ziyarət etdiyi müqəddəs fenomen - Ağa Seyidəli Mir Mövsümzadə Akif Əlizadənin atasının doğma dayısıdır.

1924-cü ildə indiki Azərbaycan Tibb Universitetindən məzun olmuş gənclər sırasında atası Ağamehdi Əlizadə də var idi. Ağamehdi həkim Bakıda realnı məktəbi bitirmişdi. Rus və Azərbaycan dillərində gözəl təhsil almışdı. Evdə atasından fars və ərəb dillərini də mükəmməl öyrənmişdi. Tibb elmləri namizədi idi. Ömür-gün yoldaşı Əfşan xanım da qədim türk şəhəri İrəvanın əsilzadələr nəslindən çıxmışdı. O dövrdə sayı elə də çox olmayan qadın həkimlərimizdən biri kimi Azərbaycanda qadın fəallığı ənənələrinə töhfələr verirdi.

Əlizadələr ailəsində iki oğul övladı böyüyürdü. Akif və ondan iki yaş böyük qardaşı Məsud. Qardaşlar lap uşaqlıqdan xeyli irəli gedən bilik və bacarıqları ilə seçilirdilər. Nəsildən gələn fitri istedad hər addımda özünü göstərirdi. Qafqaz müsəlmanlarının dini lideri, görkəmli ruhani alim Şeyxülislam Axund Ağa Əlizadə ilə hər gün ünsiyyətdə olmaq, Mir Mövsüm ağa ilə qohumluğun şərəfini duymaq, tez-tez bu müqəddəs şəxsiyyətin ziyarətinə gedib onunla görüşmək qardaşlarda yaşlarına uyğun olmayan bir məsuliyyət doğururdu. Anlayırdılar ki, bunun ilkin məsuliyyəti çalışqanlıq, dərslərdə xüsusi səy göstərmək, cəmiyyətdə özlərini bu şəxsiyyətlərin adına layiq, nümunəvi aparmaqdır.

Akif Əlizadə orta məktəbi gümüş medalla bitirib. Arzusu Tibb Universitetinə daxil olmaq olsa da, bir təsadüf nəticəsində o, Azərbaycan Sənaye İnstitutunun geologiya-kəşfiyyat fakültəsinə qəbul olunur.

Tələbə ikən dərslərinə xüsusi səy göstərən Akif Əkizadə hələ tələbəliyin ilk illərindən qərara almışdı ki, atasının elm yolunu davam etdirsin. Ona görə də tələbəlikdən elmi işə qızğın maraq göstərirdi.



Tələbə elmi cəmiyyətində fəal iştirakı da bu marağın formalaşmasında böyük rol oynamışdı. Onun seçdiyi bilik sahəsində yeni, hələ öyrənilməmiş məsələlərə can atması gələcək müqəddəratını müəyyən etdi. Məhz buna görə də 1956-cı ildə Azərbaycan Sənaye İnstitutunu (indiki Azərbaycan Dövlət Neft Akademiyası) fərqlənmə diplomu ilə bitirərək neft mədənlərində quyuların tədqiqi üzrə texnik vəzifəsinin icrasına başlasa da, yenidən elmə qayıtdı. Elmi araşdırmalara olan marağı onun həyatını Geologiya İnstitutuna bağlamışdır. 1957-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının Geologiya İnstitutuna işə qəbul edildi və elm onun həmişəlik fəaliyyət məkanına çevrildi.

***1957-ci ildə Azərbaycan SSR Elmlər Akademiyasının Geologiya İnstitutunda baş laborant vəzifəsinə işə qəbul olunan alim 1961-ci ildə geologiya-mineralogiya elmlər namizədi, 1969-cu ildə geologiya-mineralogiya elmlər doktoru elmi dərəcəsi adını almaqla bu sahə üzrə keçmiş SSRİ-də ən gənc yüksəkixtisaslı mütəxəssislər sırasına daxil olmuşdur.***

Bu institut onun rəhbərliyi dövründə Azərbaycan Elmlər Akademiyası sistemində aparıcı elmi mərkəzlərindən birinə çevrildi. İnstitutun elmi fəaliyyətinin effektivliyi o dövrdəki ənənəvi göstəricilərə - namizədlik və doktorluq dissertasiyalarının, monoqrafik əsərlərin, təltif edildiyi mükafatların sayına görə kifayət qədər yüksək olmuşdu. Onlarla gənc tədqiqatçı keçmiş SSRİ-nin aparıcı elmi mərkəzlərinə məqsədli aspirantura və doktoranturaya ezam edilmişdi. İnstitut sürətlə beynəlxalq səviyyəyə çıxır, dəniz və okeanların öyrənilməsi üzrə beynəlxalq okeanoloji ekspedisiyalarda iştirak edirdi.

Geologiya və Geofizika İnstitutunun alimləri bir sıra geoloji istiqamətlər üzrə, o cümlədən, palçıq vulkanizmi və dərinlikdə yatan neft-qaz yataqlarının formalaşmasının öyrənilməsi sahəsində dünya elmində aparıcı yerlər tuturdular. İnstitutun alimləri dünyada ilk dəfə olaraq dəniz və okeanların su qatında submarin qazohidratları və qazları aşkar etmiş və öyrənmişlər. Bütün bunlar alimlərin fərdi zəhməti qədər institut əməkdaşlarına bu şəraiti yaradan, onları nailiyyətlərə həvəsləndirib motivasiya edən Akif müəllimin menecer məharətinin, tələbkarlığının, hər kəs üçün təmin etdiyi bərabər imkanların nəticəsi idi.

***Akif Əlizadənin bir alim kimi inkişafı Azərbaycan geologiya elminin də qızıl dövrünə təsadüf edir. Azərbaycanda geologiya elmi 60-70-ci illərdə özünün inkişaf zirvəsinə yüksəlmişdi. Burada təbii ki, ümummilli lider Heydər Əliyevin alimlərə dəstəyinin, onları fəal elmi tədqiqatlara ruhlandırmasının, alimlərimizdən nəticə gözləntilərinin də böyük rolu vardı.***

Ötən əsrin 60-cı illərində elmin sürətli inkişaf tempi gənc alim Akif Əlizadənin istedadının parlaması üçün olduqca əlverişli mühit yaratmışdı. 1961-ci ildə o, namizədlik dissertasiyasını uğurla müdafiə etdi. Səkkiz il sonra isə - 1969-cu ildə, cəmi 35 yaşında doktorluq dissertasiyası müdafiə edərək elmlər doktoru oldu. Keçmiş SSRİ məkanından ən gənc yüksəkixtisaslı mütəxəssislərdən biri və Azərbaycan Elmlər Akademiyası sistemində ən cavan direktor müavini kimi elm tarixinə düşdü.

Dərin elmi biliyi, təşəbbüskarlıq, təşkilatçılıq qabiliyyəti və insansevərliyi onun gənc yaşlarından institutun rəhbər vəzifələrində təmsil olunmasına imkan vermişdir. 1970-1976-cı illərdə Geologiya İnstitutunun direktor müavini olmuş alim 1976-cı ildən bu günə kimi həmin institutun direktoru vəzifəsində çalışır.

Geologiya elmi sahəsində geniş tədqiqatlar aparan, onu yeni elmi və nəzəri biliklərlə zənginləşdirən Akif Əlizadə 1980-ci ildə AMEA-nın müxbir üzvü, 1989-cu ildə isə həqiqi üzvü seçilmişdir.

Akademik Akif Əlizadə 1990-cı ildə AMEA Rəyasət Heyətinin üzvü və Yer Elmləri Bölməsinin akademik-katibi seçilmişdir.

Yüksək elmi potensiala və böyük təşkilatçılıq bacarığına malik olan alim 2007-ci ildən 2013-cü ilədək AMEA-nın vitse-prezidenti vəzifəsində çalışmışdır.

AMEA-nın vitse-prezidenti olduğu müddətdə Azərbaycanda elmin inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi və respublikanın elmi-texniki inkişaf strategiyasının hazırlanmasında yaxından iştirak edən və yüksəkixtisaslı elmi kadrların hazırlanmasında, elm və təhsil əlaqələrinin möhkəmləndirilməsində böyük təcrübəsi olan Akif Əlizadə 2013-cü ildə AMEA-nın prezidenti vəzifəsinə seçilmişdir.

**Prezident İlham Əliyev Akif Ağa Mehti oğlu Əli Zadənin “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu” ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.**
**Sərəncama əsasən, A.Əli Zadə Azərbaycanda elmin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə təltif edilib.**

Görkəmli geoloq-alim və böyük elm təşkilatçısı olan akademikin başlıca tədqiqat sahəsi təbaşirin stratiqrafiya və paleontologiyası məsələlərini əhatə edir. Onun rəhbərliyi və bilavasitə iştirakı ilə Azərbaycanın təbaşir çöküntülərinin stratiqrafik sxemləri işlənib hazırlanmış, geoloji proseslər, çökmə və vulkanogençökmə formasiyaları, təbaşir dovründə faunanın inkişafı və s. məsələlərə dair müasir baxışları əks etdirən zəngin paleontoloji-stratiqrafik materiallar araşdırılmış və ümumiləşdirilmişdir.

Təbaşir dövründə Aralıq dənizi hövzələrində fəqərəsizlərin zaman-məkan daxilində paylanma mərhələlərinin müəyyən edilməsində və bu əyalətdə müvafiq paleobiocoğrafi taksonların ayrılmasında da elmi yenilik akademik Akif Əlizadəyə məxsusdur.

Akademik Akif Əlizadənin elmi araşdırmaları təkcə paleontologiya və stratiqrafiya ilə məhdudlaşmır, oregionalgeologiya, tektonika, filizgeologiyası və hidrogeologiyaya aid məsələləri də daim diqqət mərkəzində saxlamışdır.

Alimin sonrakı elmi fəaliyyəti yeni prioritet elmi istiqamətə - geoekologiyaya yönəldilmişdir. Dünya elmi daxili qabıqlı mollyuskaların öyrənilməsində A.P.Pavlov və Q.Y.Krımholtsla yanaşı, akademik Akif Əlizadənin də rolunu xüsusi qeyd edir. Təsadüfi deyildir ki, təbaşir belemnitlərinin öyrənilməsində Azərbaycan aliminin xidmətlərini nəzərə alaraq onun adı ilə belemnitlərin yeni ailəsi – «Akifibelidlər» adlandırılmışdır.

***Akademik Akif Əlizadə respublikanın elmi-ictmai həyatında da daima yaxından iştirak edir. O, 1991-ci ildən H.Z.Tağıyev mükafatları Milli Komitəsinin üzvü, Fövqəladə Hallar Nazirliyi yanında seysmik təhlükənin qiymətləndirilməsi və zəlzələlərin proqnozu üzrə respublika Ekspert Şurasının sədridir. 2013-cü il 10 dekabr tarixində Azərbaycan Respublikası Milli Atlasının redaksiya heyətinin yeni tərkibi yenidən təsdiq edildikdə, o redaksiya heyətinin sədr müavini vəzifəsinə seçilmişdir.***

Akademik Akif Əlizadənin AMEA-nın prezidenti seçilməsi ilə bu elmi müəssisə kadr islahatları, struktur dəyişikliklər və gənc elmi potensialın yenidən dəyərləndirilməsini özündə ehtiva edən islahatlarla müşahidə olunan yeni yüksəliş mərhələsinə qədəm qoymuşdur. Onun yüksək idarəçilik və təşkilatçılıq qabiliyyəti sayəsində elmi mühitin yaradılmasında effektiv nailiyyətlər əldə olunmuş, gənclərin elmə maraqlarının artırılması, elmin cəmiyyətə təbliğ olunması istiqamətində effektiv yollar müəyyənləşdirilmiş, müstəqil Azərbaycanın iqtisadi inkişafının ruhuna cavab verən elm hərəkatının əsası qoyulmuşdur.

Təsadüfi deyil ki, Akif müəllimin direktoru olduğu Geologiya və Geofizika İnstitutu Azərbaycan elmi müəssisələri sırasında ən çox qrant qazanan elmi-tədqiqat mərkəzidir. İnstitutun tərəfdaşlarının sırası xeyli genişdir və bu coğrafiya ildən-ilə genişlənir. Bunlar Böyük Britaniyanın Kembric, Aberdin universitetləri, ABŞ-ın Cənubi Karolina, Yuta, Vayominq, Merilend, Kaliforniya universitetləri, Massaçusets Texnologiya İnstitutu və bir çox başqaları, Pyer və Mari Küri Universiteti, Neft İnstitutu (Fransa), Karlsrue, Hannover universitetləri (Almaniya), Moskva Dövlət Universiteti (Rusiya), Delft (Niderland), İstanbul (Türkiyə) universitetləri və başqalarıdır.

***Kadr hazırlığı və qabaqcıl texnologiyaların tətbiqi məsələlərinin həlli də akademik Akif Əlizadənin böyük uğurudur. Onun dəstəyi ilə perspektivli kadrlar xarici ölkələrin elmi tədqiqat müəssisələrinə uzunmüddətli ezamiyyətə göndərilmiş, xarici universitetlərin aparıcı alimləri Geologiya İnstitutuna dəvət olunmuşdur. Eyni zamanda, MDB ölkələri və Sakit okean regionu alimləri ilə əməkdaşlıq aktivləşdirilmiş, əlaqələr bərpa edilmişdir. Yaponiya Milli Şirkəti, Cənubi Koreya institutları (KİQAM), Çanq-Konq (Tayvan) Universiteti, İndoneziya Milli Neft Şirkəti ilə müştərək işlərin aparılması İnstitutun fəaliyyətinin yeni mərhələsi ilə əlamətdardır.***

Yüksək texnologiyalar sahəsində dünyada lider olan Massaçusets Texnologiyalar İnstitutu ilə birlikdə 10 ildən artıq müddətdə kosmik geodeziya vasitəsilə Qafqaz, Yaxın və Orta Şərq, Orta Asiya regionunda iri blokların hərəkət sürətinin və istiqamətinin öyrənilməsi üzrə işlər görülmüşdür. Bu işlər nəticəsində əldə edilmiş məlumatlar dünyanın ən nüfuzlu elmi jurnallarında çap olunmuş, beynəlxalq konqres və konfranslarda məruzə edilmişdir. Bu məlumatlar bu gün geologiya sahəsində ən çox sitat gətirilən və tələb olunan elmi işlərdən sayılır. Bütün bunlar, təbii ki, akademik Akif Əlizadənin alim komandasını ümumi məqsədlər ətrafında bir araya gətirmək məharətinin gücüdür.

İnstitut geologiya elminin fundamental istiqamətləri ilə yanaşı, respublikanın mühüm iqtisadi inkişaf problemlərinin həllində də fəal iştirak edir. Akademikin rəhbərliyi ilə tərtib edilərək nəşr olunmuş səkkiz cildlik unikal fundamental əsərlər - "Azərbaycan geologiyası", habelə ensiklopedik "Azərbaycanın mineralları" atlası öz elmi və maarifləndirici əhəmiyyətini hələ on illər sonra da qoruyub saxlayacaq.

Akademik Akif Əlizadə müasir inkişaf meyillərinə, elmdəki qlobal çağırışlara çox həssasdır. Bu da onun hər zaman özünü inkişaf etdirmək, oxuyub-öyrənmək, dünya elmində gedən proseslərdən xəbərdar olmaq və mütərəqqi yenilikləri Azərbaycan elmində də tətbiq etmək marağından irəli gəlir. Elmlə təhsilin inteqrasiyasının faydalarını dərindən duyan akademikin təşəbbüsü və bilavasitə rəhbərliyi əsasında Geologiya və Geofizika İnstitutunda 2012-ci ildə Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin, 2013-cü ildə isə Bakı Dövlət Universitetinin baza kafedraları yaradılıb.

Elə 2013-cü ildə Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti seçildikdən sonra da akademik Akif Əlizadənin ilk addımlarından biri məhz bu istiqamətdə oldu. Elmlə təhsilin inteqrasiyası, elmi kadr potensialının inkişafı, gənclərin elmə marağının artırılması məqsədilə akademikin təşəbbüsü ilə Azərbaycan Milli Elmlər Akademiyasında magistratura pilləsi yaradıldı.

Ümumiyyətlə, AMEA prezidentliyi akademik Akif Əlizadənin həyatında da, milli elmimizin inkişafında da yeni bir mərhələdir. Akademik Akif Əlizadənin rəhbərliyi dövründə AMEA-da çox ciddi islahatlar aparılıb. Bir sıra fundamental təşəbbüslər icra edilib. Dünya elminə sürətlə inteqrasiya, qabaqcıl metodlara və texnologiyalara yiyələnmək və zamanın tələblərinə uyğun gənc elmi kadrların hazırlanması məsələləri rəhbər kimi onun əsas məramıdır.

Azərbaycan elminə həsr etdiyi ömür yolunda akademikin layiq görüldüyü mükafatlar çoxdur. 1970-ci ildə "Fədakar əməyə görə" medalı, 1986-cı ildə "Şərəf nişanı" ordeni, 1991-ci ildə Azərbaycan Respublikasının Əməkdar elm xadimi fəxri adı və Dövlət Mükafatı, 2004-cü ildə "Şöhrət" ordeni, 2008-ci ildə "Şərəf" ordeni, 2014-cü ildə Rusiya Təbiət Elmləri Akademiyasının xarici üzvü və Rusiya Təbiət Elmləri Akademiyasının "Elm və mədəniyyət fədakarı" fəxri nişanı, elə həmin il Azərbaycan Respublikasının "İstiqlal" ordeni ilə təltif edilib.

Elmi fəaliyyətinin geologiya sahəsinə aid olmasına baxmayaraq, humanitar elmlərə, ədəbiyyata, şeirə, sənətə də böyük maraq göstərən, hərdən özü də kövrək duyğularını şeirə çevirən Akif müəllimin ziyalı şəxsiyyəti hamıya örnəkdir.

Akademikin dərin ziyalılığı, yüksək mədəniyyəti, intellektual səviyyəsi, insanlarla asanlıqla dil tapmaq bacarığı, xeyirxahlığı, qayğıkeşliyi, görülən işə ciddi və tələbkar münasibəti onun uğurlarının səbəbidir.

**Azərbaycan ziyalısının ən gözəl xüsusiyyətlərini özündə cəmləşdirən, mehriban, qayğıkeş, ünsiyyətcil, dərin intuisiyaya, ən başlıcası, yüksək mənəviyyata malik elm fədaisi Akif Əlizadəyə ömrünün 90-cı zirvəsində möhkəm cansağlığı, işlərində müvəffəqiyyətlər arzulayırıq.**

**Akademik**
**Ziyad SƏMƏDZADƏ**

# *Azərbaycan iqtisadiyyatı, ölkənin xarici iqtisadi əlaqələri dünən, bu gün, sabah*



*Sual-cavabı Bakı Dövlət Universitetinin dosenti, iqtisad elmləri namizədi Mehriban Yadulla aparır.*

**Sual:** Hansı halda işlərin görülməsinə, xidmətlərin göstərilməsinə və əməliyyatların aparılmasına görə idxal zamanı ƏDV sıfır (0) dərəcəsi ilə tutulur?

**Cavab:** Bu məsələ Vergi Məcəlləsinin aşağıdakı maddələrində öz əksini tapmışdır:

165.1.1. Azərbaycan Respublikasında akkreditə edilmiş beynəlxalq təşkilatların və xarici Ölkələrin diplomatik və konsulluq nümayəndəliklərinin rəsmi istifadəsi, həmçinin bu nümayəndəliklərin müvafiq statuslu Azərbaycan Respublikasının vətəndaşı olmayan diplomatik və inzibati-texniki işçilərinin, o cümlədən onlarla yaşayan ailə üzvlərinin şəxsi istifadəsi üçün nəzərdə tutulan mallar və xidmətlər;

165.1.2. qrant müqaviləsi (qərarı) əsasında xaricdən alınan qrantlar hesabına malların idxalı, qrant üzrə resipiyentlərə malların təqdim edilməsi, işlərin görülməsi və xidmətlərin göstərilməsi;

165.1.3. malların (o cümlədən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində bu Məcəllənin 165.3-cü maddəsinə uyğun olaraq əlavə dəyər vergisinin qaytarılması qaydasında satıcı kimi qeydiyyata alınmış vergi ödəyicilərindən əldə edilmiş istehsal yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların) və bu Məcəllənin 168.1.5-ci maddəsində göstərilmiş xidmətlərin ixracı;

165.1.4. beynəlxalq poçt xidmətləri istisna olmaqla, beynəlxalq və tranzit yük və sərnişin daşınması, habelə tranzit yük daşınması ilə bilavasitə bağlı yük aşırılma xidməti. Beynəlxalq və tranzit uçuşlarla bilavasitə bağlı olan işlərin görülməsi, xidmətlərin göstərilməsi, habelə beynəlxalq və tranzit yük daşınması ilə bağlı ekspeditor xidmətlərinin göstərilməsi;

165.1.5. Azərbaycan Respublikasının Mərkəzi Bankına qızıl və digər qiymətlilərin göndərilməsi.

165.1.9. müvafiq icra hakimiyyəti orqanının (burada nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir) müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş qaydada malların ixrac qeydi ilə satışı;

165.1.10. müəssisənin nizamnamə fonduna (kapitalına) pay şəklində əsas vəsaitin qoyulması (əsas vəsaitin pay şəklində qoyuluşu, onun müqabilində bilavasitə digər əmlakın əldə edilməsi ilə əlaqədar olmadıqda).

165.2. Bu Məcəllənin 165.1.1-ci maddəsi üzrə sıfır (0) dərəcəsi ilə ƏDV o ölkələrə münasibətdə tətbiq edilir ki, həmin ölkələr tərəfindən 165.1.1-ci maddəsində göstərilən işlərə, xidmətlərə və əməliyyatlara görə ƏDV sıfır (0) dərəcəsi ilə tətbiq edilsin.

165.3. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində alınmış, istehsal yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş ƏDV-nin qaytarılması qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən (burada nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir) müəyyən edilir.

# "PAŞA Bank" ABA tərəfindən dörd nüfuzlu mükafata layiq görülüb

Ölkənin aparıcı korporativ maliyyə institutu olan "PAŞA Bank" Azərbaycan Banklar Assosiasiyası (ABA) tərəfindən keçirilən "Bankçılıq mükafatları" müsabiqəsinin bir neçə nominasiyasının qalibi seçilib.




Belə ki, ölkədə bank sektorunun bütün iştirakçıları arasında keçirilən müsabiqədə maliyyə institutlarının 2023-cü il üzrə fəaliyyət nəticələri qiymətləndirilib. Assosiasiyanın ekspertləri tərəfindən verilən qərara əsasən, "PAŞA Bank" 4 istiqamət üzrə nüfuzlu mükafata layiq görülüb. Belə ki, Bank "Korporativ sosial məsuliyyət", "Kiçik və Orta Biznesin maliyyə əlçatanlığının artırılması ilə əlaqədar tədbirlər keçirmiş ABA üzvü", "Rəqəmsal ödənişlər sahəsində innovativ layihələrin tətbiqi" və "Rəqəmsal ödənişlərdə təhlükəsizliyə dair maarifləndirmə layihələri" istiqamətlərində qalib seçilib.

# Əlcəzair ilə enerji sahəsində əməkdaşlıq müzakirə olunub



Energetika naziri Pərviz Şahbazov Qaz İxrac edən Ölkələr Forumunun VII (GECF) Zirvə Toplantısı çərçivəsində Əlcəzairin energetika və mədən naziri Məhəmməd Arkab ilə görüşüb.

İqtisadiyyat Nazirliyindən bildiriblər ki, görüşdə GECF, "OPEC+" çərçivəsində, həmçinin ikitərəfli formatda əməkdaşlığın konstruktiv məcrada inkişafından məmnunluq ifadə edilib. Neft-qaz ölkələri olan Azərbaycanla Əlcəzairin enerji sahəsində əməkdaşlığının cari vəziyyəti nəzərdən keçirilib.

2022-ci ildə Azərbaycan ilə Əlcəzair arasında imzalanmış neft və qaz sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumuna müvafiq olaraq Birgə İşçi Qrupunun yaradılması prosesinin sürətləndirilməsi razılaşdırılıb. Həmçinin, SOCAR və "Sonatrach" şirkətlərinin əməkdaşlığının genişləndirilməsi, Hökumətlərarası Komissiyanın yaradılması ilə bağlı məsələlər də müzakirə olunub.

Energetika naziri əlcəzairli həmkarını Azərbaycana səfərə dəvət edib.

# Ötən il ölkədə 4.5 mlrd. manat vergi borcu ləğv edilib



Azərbaycanda 2023-cü il 1 yanvar tarixinə 923 min vergi ödəyicisinin dövlət büdcəsinə ümumilikdə 2 milyard 356,7 milyon manat vergi borcu olub. Bu barədə Nazirlər Kabinetinin 2023-cü ildə fəaliyyəti haqqında hesabatda bildirilib.

Hesabatda deyilir ki, 2023-cü il ərzində 215,2 min vergi ödəyicisinin 4936,6 mln. manat məbləğində vergi borcu yaranıb, 210,9 min vergi ödəyicisinin 4 milyard 511,2 milyon manat məbləğində vergi borcu ləğv edilib. Ləğv edilmiş borc məbləğindən 674 milyon. manatı və ya 28,6%-i məhz 2023-cü il 1 yanvar tarixinə mövcud olmuş borcların payına düşüb.

2023-cü il ərzində artmış borc məbləğinin 288,6 milyon manatı (28,4%-i) səyyar vergi yoxlamaları nəticəsində, 504,4 milyon manatı və ya 49,6%-i kameral vergi yoxlamaları nəticəsində, 83,6 milyon manatı və ya 8.2%-i isə bəyannaməyə əsasən yaranıb.

Nəticədə, 2024-cü il 1 yanvar tarixinə 96,7 min vergi ödəyicisinin dövlət büdcəsinə 2 milyard 782.1 mln. manat (o cümlədən, əsas vergilər üzrə 1 milyard 809,9 milyon manat, faizlər üzrə 696.5 milyon manat və maliyyə sanksiyası üzrə 275,7 milyon manat) məbləğində borcu olub.

Ümumilikdə, 2023-cü il ərzində borclu vergi ödəyicilərindən daxilolma 3 milyard 923, 4 milyon manat olub.

# "Azəri-Çıraq-Günəşli"nin builki gəlirləri açıqlanıb

Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) ötən iki ay ərzində "Azəri-Çıraq-Günəşli" (AÇG) yataq bloku üzrə gəlirləri 1,5 dəfə azalıb.

Azərbaycan Respublikası Dövlət Neft Fondunun yaydığı məlumatda bildirilir ki, AÇG yatağından 2024-cü ilin əvvəlindən martın 1-i tarixinə 862 milyon dollar gəlir əldə olunub.

Ötən ilin müvafiq dövründə AÇG yatağından 1324 milyon dollar gəlir əldə edilmişdi.



# Mərkəzi Asiyadan "yaşıl enerji"nin Azərbaycan vasitəsilə ixrac edilməsi müzakirə edilib



Energetika naziri Pərviz Şahbazov həmkarı Almasadam Satkaliyev ilə görüşüb.

Bu barədə energetika naziri Pərviz Şahbazov "X" sosial şəbəkəsindəki hesabatında bildirib.

"Astanada həmkarım Almasadam Satkaliyev ilə səmərəli görüşümüz oldu. BTC ilə Qazaxıstan neftinin nəqlinin tədricən artırılması, Mərkəzi Asiyadan "yaşıl enerji"nin Azərbaycan vasitəsilə ixracı üçün müvafiq tədbirlərin görülməsi, nazirliklər arasında enerji sahəsində strateji tərəfdaşlığa dair Saziş layihəsinin hazırlanması məsələlərini müzakirə etdik", - Pərviz Şahbazov qeyd edib.

# Ağdam Sənaye Parkında əhəng və perlit istehsalı müəssisəsi yaradılacaq

"Ağdam Sənaye Parkının ərazisində əhəng və perlit istehsalı müəssisəsi yaradılacaq".

Bu barədə iqtisadiyyat naziri Mikayıl Cabbarov məlumat verib. Nazir bildirib ki, "Ağdağ" MMC-yə Ağdam Sənaye Parkının rezidenti statusu verilib. Şirkət tərəfindən Sənaye Parkının ərazisində əhəng və perlit istehsalı müəssisəsi yaradılacaq: *"İnvestisiya dəyəri 15 milyon manat olan müəssisədə 100 nəfərlik daimi iş yerinin yaradılması nəzərdə tutulur".*

# Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin modernləşdirilməsi işləri yekunlaşır

Orta Dəhlizin vacib seqmenti hesab olunan Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu xəttində aparılan təmir-genişləndirmə işləri yekunlaşmaq üzrədir.



Dəmir yolu xəttinin Gürcüstandan keçən, uzunluğu 183 kilometr olan mürəkkəb coğrafi relyefə malik sahəsində aparılan təmir-bərpa, rekonstruksiya və genişləndirmə işlərinin 95 faizi uğurla yekunlaşıb.

Dəmir yolu xəttinin modernləşdirilməsinin əsas məqsədi Orta Dəhlizin rəqabət qabiliyyətini artırmaq və yüklərin əhəmiyyətli hissəsinin BTQ-yə cəlb edilməsidir.

Çin və Mərkəzi Asiya ölkələrindən quru yolla daşınan yüklərin ən qısa müddətdə Avropaya çatdırılmasında BTQ dəmir yolu xəttinin əhəmiyyəti olduqca böyükdür. Asiyadan gələn yüklərin Azərbaycan üzərindən biraşırımlı əməliyyatla Avropaya daha sürətli çatdırılması BTQ-nin regional nəqliyyat şəbəkəsindəki əhəmiyyətini daha da önə çıxarır.

Artmaqda olan yük tələbatını qarşılamaq üçün 2023-cü ildən layihə çərçivəsində kompleks təmir-genişləndirmə işlərinə başlanılıb, hazırda son tamamlanma işləri görülür.

Sözügedən ərazidə aparılan işlərlə yaxından tanış olmaq üçün Azərbaycan, Gürcüstan və Türkiyə dəmir yolları idarələrinin rəhbərləri Rövşən Rüstəmov, David Peradze və Veysi Kurtun iştirakı ilə martın 2-də görülən işlərə birgə baxış keçirilib, layihənin qrafik üzrə vaxtında tamamlanması üçün yerində müvafiq müzakirələr aparılıb.

"Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Rövşən Rüstəmov aparılan təmir-genişləndirmə işləri ilə bağlı bildirib ki, BTQ-nin çətin relyefə, dağlıq və meşəlik əraziyə malik Marabda-Kartsaxi sahəsində yol təsərrüfatının sağlamlaşdırılması, onun ötürücülük qabiliyyətinin artırılması və hərəkətin təhlükəsizliyinin təmin edilməsi baxımından əsas işlər yekunlaşıb.

# Азербайджан присоединился к инициативе «Глобальное обязательство по метану»

Азербайджан объявил о присоединении к инициативе «Глобальное обязательство по метану», предусматривающей добровольное принятие государствами обязательства по сокращению выбросов метана.

Как сообщает Trend, в рамках этой инициативы Азербайджан готов присоединиться к совместным международным усилиям, преследующим цель снизить глобальные эмиссии метана до 2030 года по меньшей мере на 30 процентов.

«Глобальное обязательство по метану» является инициативой, выдвинутой в качестве глобального обязательства по сокращению эмиссий метана США и Европейским Союзом (ЕС) на состоявшейся в 2021 году в городе Глазго Соединенного Королевства 26-й сессии Конференции об изменении климата COP26. Цель «Глобального обязательства по метану» заключается в ограничении эмиссий метана до 2030 года в целом на 30 процентов в сравнении с 2020 годом. В настоящее время 155 стран объявили о присоединении к этому международному обязательству, на долю этих стран приходится примерно половина глобального загрязнения метаном.

В 1995 году Азербайджан ратифицировал Рамочную конвенцию ООН об изменении климата, а в 2000 году – Киотский протокол конвенции, присоединившись к международным усилиям по смягчению негативных воздействий глобального изменения климата. В документе «Определяемый на национальном уровне вклад (ОНУВ)» Азербайджан в качестве вклада в инициативы по смягчению последствий глобального изменения климата наметил цель сохранить к 2030 году эмиссии газа, создающие парниковый эффект, на уровне сокращения их на 35 процентов в сравнении с базовым годом. А в обновленном в 2023 году документе в качестве нового обязательства поставлена цель сократить до 2050 года эмиссии газа, создающие парниковый эффект, в объеме 40 процентов. Одновременно было объявлено, что до 2050 года планируется превратить Карабахский и Восточно-Зангезурский экономические районы в зону декарбонизации.

# Азербайджан и Катар обсудили развитие рынка ценных бумаг



Как сообщает во вторник Trend, об этом в своем аккаунте в социальной сети «X» написал председатель Центрального банка Азербайджана (ЦБА) Талех Кязимов.

«В рамках визита в Катар прошла встреча с Тами Ахмедом Али Аль-Бутами Аль-Бинали, генеральным директором Управления по финансовым рынкам Катара. Мы обсудили развитие рынка ценных бумаг Катара и возможности, открывающиеся перед иностранными инвесторами. Кроме того, мы обменялись мнениями о перспективах сотрудничества между надзорными органами и участниками рынка ценных бумаг обеих стран», - говорится в публикации. Отметим, что ранее совместно с Катарским финансовым центром были обсуждены льготы для финансового сектора. Кроме того, накануне центральные банки Азербайджана и Катара обсудили перспективы сотрудничества.

Напомним, что перед прибытием в Катар председатель ЦБА находился с рабочим визитом в ОАЭ, где провел встречи с управляющим ЦБ ОАЭ Халедом Мохамедом Баламой, а также с управляющим Дубайского международного финансового центра (DIFC) Эссой Казимом. Так, в ходе встречи с управляющим ЦБ ОАЭ состоялся обмен мнениями о текущих экономических связях между двумя странами, развитии финансового сектора в обеих странах, а также о состоянии и перспективах сотрудничества между центральными банками, а с управляющим DIFC были обсуждены возможности сотрудничества с финансовым сектором.

# Обсужден экспорт «зеленой энергии» из Центральной Азии через Азербайджан



Министр энергетики Азербайджана Парвиз Шахбазов встретился с коллегой из Казахстана Алмасадамом Саткалиевым.

Как сообщает Trend, об этом написал министр энергетики Парвиз Шахбазов в своем аккаунте в социальной сети «X».

«В Астане состоялась плодотворная встреча с моим коллегой Алмасадамом Саткалиевым. Мы обсудили вопросы постепенного увеличения транспортировки казахстанской нефти по БТД, принятия соответствующих мер по экспорту «зеленой энергии» из Центральной Азии через Азербайджан, подготовки проекта соглашения между министерствами о стратегическом партнерстве в энергетической сфере», - говорится в публикации.

# В Ханкенди сносится «парламент» сепаратистов

В Ханкенди сносится здание «парламента НКР», построенное армянскими сепаратистами во время оккупации.

Стоит отметить, что в настоящее время в городе идут восстановительные работы, и реализованные мероприятия являются частью этого процесса. В рамках этих мероприятий сносятся построенные в период оккупации здания, не имеющие какого-либо культурного и исторического значения и портящие облик города.

# Греция поддерживает расширение TAP и IGB

Греция поддерживает усилия по увеличению мощности Трансадриатического трубопровода (TAP) и интерконнектора Греция-Болгария (IGB).

Об этом заявила заместитель министра окружающей среды и энергетики Греции Александра Сдуку в своем выступлении на 10-м заседании Консультативного совета Южного газового коридора в Баку, сообщает во вторник Trend со ссылкой на министерство.

«Греция поддерживает расширение TAP и IGB. Эти две инфраструктуры имеют решающее значение для диверсификации источников и маршрутов экспорта газа в Юго-Восточной Европе», — сказала Сдуку.

Заместитель министра подчеркнула приверженность Греции укреплению энергетической безопасности региона посредством развития важнейших газотранспортных сетей. Она также упомянула о необходимости поставок водорода по Южному газовому коридору, подчеркнув его значение для долгосрочной устойчивости проекта.

Сдуку добавила, что Греция выступает за поставку водорода и других возобновляемых газов по существующей инфраструктуре, наряду с созданием новых водородных мощностей.

Отметим, что по TAP, который является европейской частью Южного газового коридора, ежегодно поставляются восемь миллиардов кубометров газа в Италию и по одному миллиарду кубометров газа - в Грецию и Болгарию.

## В МИРЕ

# Турецкий Центробанк закупает золото мира

Мировые центробанки в январе, по предварительным оценкам World Gold Council (WGC), закупили в золотовалютные резервы 39 тонн золота.

Это более чем вдвое превышает уточненные объемы декабря (16,9 тонны) и делает январь восьмым подряд месяцем прироста, отмечает в своем обзоре аналитик WGC Кришан Гопол.

Крупнейшими покупателями в январе снова стали Турция (11,8 тонны) и Китай (10 тонн). Также закупали золото в резервы Индия (8,7 тонны), Казахстан (6,2 тонны), Иордания (3,1 тонны), Чехия (1,7 тонны) и другие.

О существенных продажах сообщил только ЦБ России (3,1 тонны, по данным WGC).

# Турецкий терминал отказался от российской нефти

Турецкий терминал Дёртйол, один из средних по размеру средиземноморских нефтяных портов, принявший в 2023 году рекордные объемы российской нефти, больше не будет принимать грузы из России из-за усиления санкционного давления со стороны США. Об этом информирует Reuters.

После введения западными странами санкций против Москвы за «военную спецоперацию» в Украине в 2022 году Турция стала одним из крупнейших импортеров российской нефти и топлива. В ответ на санкции Россия перенаправила поставки вместо Европы и США в Азию, Турцию и Африку.

Компания Global Terminal Services (GTS), управляющая терминалом Дёртйол, сообщила, что уведомила клиентов о том, что не будет принимать грузы из России.

«GTS решила прервать все возможные операции, связанные с российской нефтью, и в конце февраля 2024 года уведомила своих клиентов, что даже при отсутствии нарушения каких-либо законов, правил или санкций компания не будет принимать продукцию российского происхождения или продукцию, отгруженную из российских портов, в качестве дополнительной меры к действующим санкционным правилам», - сообщила агентству компания.

Согласно заявлению GTS, все предыдущие операции осуществлялись в полном соответствии с санкциями, в том числе с соблюдением ценового потолка на нефть, установленного странами G7.

Терминал GTS занимается импортом, экспортом и хранением топлива и сырой нефти. Согласно данным аналитической компании Kpler, терминал в 2023 году принял 11,74 миллиона баррелей российского сырья - в семь раз больше общего объема от всех отправителей в 2021 году. Экспорт с терминала в 2023 году подскочил почти в пять раз по сравнению с 2021-м, примерно до 24,7 миллиона баррелей, следует из данных Kpler. Последний танкер с российским топливом прибыл в Дёртйол 19 февраля, доставив 511.000 баррелей дизельного топлива из Приморска, свидетельствуют данные Kpler.

# Карабахские армяне протестуют в Ереване



Покинувшие Карабах армяне проводят акцию протеста у здания правительства Армении, требуя решить их проблемы с жильем. Сообщается, что армянские власти ранее выделили карабахским армянам сертификаты на покупку жилья, однако банки отказываются финансировать, выдвигая дополнительные условия для сделки. Участники акции заявляют, что порядка 1700 семей до сих пор не смогли купить квартиры. Если их проблема не будет решена, то они начнут круглосуточные пикеты у правительства.

# Ə, adını həm tarixdə, həm də ürəklərimizdə əbədi yazdı

**Qarşımda bir kitab var: mərhum Qənirə Paşayevanın "Tarixə adını yazan Azərbaycan qadınları" adlı kitabının 1-ci cildi. Düz bir il əvvəl çap olunub, yüksək səviyyədə təqdimatı keçirilib. Kitab müstəqil Azərbaycan respublikasında dövlət qadın siyasətinin əsasını qoymuş ümummilli lider Heydər Əliyevin və onun vəfalı ömür-gün yoldaşı Zərifə xanım Əliyevanın anadan olmasının 100 illiyi münasibətilə nəşr olunub. Bu kitabı ilk dəfə gördüyüm zaman məni böyük maraq bürümüşdü, görəsən, bu kitabda kimlərin adları var? Tariximizə adını yazdırmağı bacaran Azərbaycan qadınları daha kimlərdir?**

Bu topluda yer almış Azərbaycan qadınlarının əksəriyyətini tanısam da, bəzilərinin çətin həyatı, mübarizəsi haqqında olduqca az məlumatım var idi. Onlar Azərbaycanın tarixində, ictimai-siyasi həyatında, mədəniyyət və incəsənətinin inkişafında xüsusi xidmətləri olmuş görkəmli qadınlardır. Qənirə xanımın özünəməxsus üslub və peşəkarlıqla qələmə aldığı bu kitabda sayılıb-seçilən Azərbaycan qadınlarının hər biri haqqında arxivlərin sirli səhifələrindən "tapılmış", çoxlarının eşitmədiyi, bilmədiyi həqiqətlər öz əks olunub. Qənirə xanımın qəhrəmanları fərqli dövrlərdə, müxtəlif ictimai-siyasi mühitlərdə yaşayıb-yaratsalar da, Azərbaycan qadını adını qürurla və ləyaqətlə daşımış, layiq olduqları ən uca zirvələri fəth edə bilmişlər, adlarını tarixin səhifələrinə şərəflə yazmışlar. Bu topluda ictimai-siyasi xadimdən tutmuş maarifçi, şair, müəllim, musiqiçi, jurnalist qadınların həyat hekayələri verilib. Hər biri öz sahəsində dövrünün amansız, sərt qaydalarına baxmayaraq, tutduğu amal uğrunda ləyaqətlə mücadilə etmiş, keşməkeşli, iztirablı, bəzən də məhrumiyyətlə dolu mübarizə yolu keçmişdir.

*"Milli tariximizdə kifayət qədər qadınlarımız var ki, onların həyat və fəaliyyətinin araşdırılmasına, kitablaşdırılmasına ehtiyac duyulur. Düşünürəm ki, yeni müəlliflər bu işi davam və inkişaf etdirəcəkdir. Əgər mənim kitabım yeni nəşrlər üçün bir mənbə, model olarsa, bundan ancaq şad olardım".*

*Qənirə Paşayeva*



Kitabda yer almış qadın şəxsiyyətlərin həyat hekayələri ilə tanış olduqca müəllifin hər bir qəhrəmanına xüsusi həssaslıqla yanaşmasının, hər birinin siyasət, elm, ədəbiyyat, poeziya, mədəniyyət, xalqının tərəqqisi, maariflənməsi üçün göstərdiyi xidmətlərini yüksək dəyərləndirərək, oxuculara çatdırmasının şahidi olursan. Bu isə onları bizdən ayıran zaman məsafəsinin uzunluğuna baxmayaraq, vətənpərvər, mübariz, saf əqidəli, böyük güc sahibi olan qadınların hər birini bizə yaxınlaşdırır, doğmamıza çevirir. Kitabda diqqətimi çəkən məqamlardan biri də məhz bu oldu ki, müəllif hər bir qəhrəmanı haqqında söz açarkən onun yaşayıb-yaratdığı mühitn, həmin dövrün dəqiq mənzərəsini çəkərək, oxucunu tarixi hadisələrlə də məlumatlandırır. Bu isə tariximizdə nələrin baş verdiyini bilmək və onları obyektiv qiymətləndirmək baxımından olduqca əhəmiyyətlidir.

Kitabı vərəqlədikcə düşünürdüm, Qənirə xanımın gerçəkləşdirdiyi bu ideya nəinki qadınlar, qızlar üçün, hər bir insan üçün həyat məktəbinin çətin imtahanlarından qürurla, fədakarcasına çıxmağın, cəsarətli olmağın yollarını öyrədir. Onun hələ bir neçə il əvvəl **"Tarixə adını yazan qadınlar"...** üçcildliyi işıq üzü görmüş və çoxsaylı oxucular tərəfindən böyük rəğbət və maraqla qarşılanmışdı.




Azərbaycan qadınları haqqında isə son dərəcə maraqlı, çoxlarına məlum olmayan faktları araşdırıb toplamaq və böyük fəxrlə oxuculara təqdim etmək müəllifin xalqının övladlarına olan böyük ehtiram və məhəbbətinin təcəssümüdür.

***Əslində hələ ötən il, onun vaxtsız ölümünü heç ağlımıza belə gətirmədiyimiz bir vaxtda mündəricatda bu qadınların sırasında nə vaxtsa müəllifin adının da olacağına şübhə etmirdim.***

Bəli, məhz Qənirə xanım tarixə adını yazan Azərbaycan qadınlarını bu günümüzə, gələcəyimizə tanıtmağı öhdəsinə götürdü. Çünki onları o, daha yaxından görə, duya bildi, sevdi və sevdirməyə çalışdı, onlar barədə böyük hörmət və qürurla yazdı. Çünki o, sevməyi, duymağı bacaran, heç kimsəyə mərhəmətini əsirgəməyən həssas bir ürək sahibi idi. Millətinin yanında olan millət vəkili idi, xəstələrin yanında şəfa qaynağı, döyüşən əsgərlərimizə mənəvi dayaq, şəhid analarımızın təsəlli və ümid çırağı idi, həm də kövrək qəlbli bir xanım idi.

Qənirə Paşayeva fərqli, həm də aktual mövzularda yazılmış onlarca bədii və publisistik kitabın müəllifidir. Özünəməxsus ədəbi tərzdə qələmə aldığı bu kitab haqqında özünün də qeyd etdiyi kimi: **"Bu kitabı yazmaqda əsas məqsədim tarixə adlarını yazan, "ilk"lər yaradan qadınlarımızın həyatını, fəaliyyətini gənc qızlarımıza örnək kimi göstərmək olub. Bu kitab ən azı yüz qıza ünvanlanıb. Bu qadınların hekayətləri, çətinliklə əldə etdiyi uğurlar qızlarımızın hədəfə çatmaları üçün yardımçı olacaq".** Əlbəttə ki, olacaq və təkcə onların yox. Elə məhz Qənirə xanımın öz həyat yolu da qızlarımız üçün bir örnəkdir. Çünki bir Azərbaycan qadını kimi o, nəinki tarixə, həm də yüz minlərlə insanın ürəyinə öz adını yaza bildi.

*P.S. Bu günlərdə - mərhum Qənirə xanımın doğum günü ərəfəsində onu bir daha xatırlamaq, qoymuş olduğu mənəvi irsin bir nümunəsi haqqında fikirlərimi oxucularla bölüşmək istədim. Düşünürəm ki, Qənirə xanımın başladığı bu savab işi onunla birgə çalışanlar davam etdirsələr, onun da ruhu şad olar. Axı, xalqımızın adı tarixdə əbədi qalacaq hələ neçə-neçə övladları var. Nur içində yatsın!*

Aytən SƏMƏDZADƏ


AZƏRBAYCAN KOOPERASİYA UNİVERSİTETİ

...Əminəm ki, Azərbaycan qadını bundan sonra da ölkəmizdəki böyük quruculuq işlərində əzmkarlıqla çalışacaq, müstəqillik salnaməmizi yeni müvəffəqiyyətləri ilə zənginləşdirəcəkdir.

İlham Əliyev,
Azərbaycan Respublikasının Prezidenti





# Azərbaycan əhalisinin 50,2 faizi qadınlardır



***2024-cü ilin əvvəlinə ölkə əhalisinin ümumi sayının 50,2 faizini qadınlar təşkil etmiş, ötən ildə doğulmuş 112,6 min körpədən 46,9 faizi qız uşaqları olmuşdur.***

Dövlət Statistika Komitəsindən verilən məlumata görə, ölkənin ümumi təhsil müəssisələrində müəllimlərin 82,7 faizi, orta ixtisas təhsil müəssisələrində 79,4 faizi, ali təhsil müəssisələrində 58,7 faizi, həkimlərin isə üçdən ikisi qadınlardır. Ümumi təhsil müəssisələrində təhsilalanların 46,6 faizini, orta ixtisas təhsili müəssisələri tələbələrinin 62,5 faizini, ali təhsil müəssisələri tələbələrinin isə yarısını qızlar təşkil edir.

***Qadınların elmin inkişafında da müstəsna rolu vardır. Elmi işçilərin 59,2 faizini qadınlar təşkil edir. Son 10 ildə onlardan elmlər doktoru elmi dərəcəsi olanların sayı 1,6 dəfə, fəlsəfə doktoru elmi dərəcəsi olanların sayı isə 1,5 dəfə artıb. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvlərindən 7-si, müxbir üzvlərindən isə 9-u qadındır.***

Azərbaycan qadınları ölkənin sosial-iqtisadi həyatında fəal iştirak edir və onların məşğul əhalinin ümumi sayındakı xüsusi çəkisi ilkin məlumatlara əsasən 47,9 faiz təşkil edir. Dövlət qulluğunda çalışanlar arasında qadınların xüsusi çəkisi 29,4 faiz, fərdi sahibkarlar arasında isə 22,7 faizdir.

Milli Məclisdə qadın deputatların sayı da artır. Əgər 1990-cı ildə bütün deputatların 4,3 faizini, 2000-ci ildə 10,7 faizini qadınlar təşkil edirdisə, bu gün ölkədə qadın deputatların xüsusi çəkisi 17,9 faizə çatıb.

Diqqəti cəlb edən faktlardan biri də nəqliyyat vasitələrinin idarə olunması üçün sürücülük vəsiqəsi alan qadınların sayının ildən-ilə artmasıdır. Belə ki, sürücülük vəsiqəsi alanların ümumi sayında qadınların xüsusi çəkisi 2008-ci ildə 4,6 faiz olduğu halda, 2023-cü ildə 12,0 faizədək artıb.

Müasir dövrdə qadınlarımız müstəqil Azərbaycanın inkişafına öz dəyərli töhfələrini verir, cəmiyyətdə qabaqcıl mövqeləri tuturlar. Azərbaycan qadınları ölkənin həm sosial-iqtisadi, həm də ictimai-siyasi həyatında fəal iştirak edirlər.

Qadınsız həyat çox darıxdırıcı və mənasız olar. Qadınlar cəmiyyətdə göstərdikləri bütün başqa xidmətlərlə yanaşı, həm də ana olduqlarına görə ən yüksək qiymətə layiqdirlər.

**Əziz xanımlar!**

***8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə hər birinizi ürəkdən təbrik edir, mənalı həyat, xoşbəxtlik dolu anlar və ailə səadəti arzulayırıq.***

# İnformasiya texnologiyaları və onların təhlükəsizliyinə üstün dövlət baxışı

***Bu günə qədər informasiya texnologiyalarına nəzarət və baxış fərqli idi. Müəyyən qurumlar vəzifələri bölüşüb, işlər aparırdılar, amma 2023-cü il 28 avqust tarixindən məsələlər fərqli və daha dəqiq prizmada inkişaf etdi. Ona görə ki Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023-2027-ci illər üçün Strategiyası ölkə rəhbəri Cənab Prezident İlham Əliyev tərəfindən təsdiq edildi. Bu strategiyaya istinadlar edərək, burada əksini tapdığına sevindiyim, müxtəlif çıxış və yazılarımda qeyd etdiyim məsələlər, diqqətimi çəkən xüsusi məqamların bəzilərini qeyd edib, mühəndis-tədqiqatçı kimi qismən şərhini verməyə çalışacağam. Şərhlərin verilmə məqsədi strategiyada qeyd edilənlərin bir qismini bir qədər sadə formada oxucuya çatdırmaq və onun bu məsələyə verəcəyi əhəmiyyəti yüksəltməkdir. İnformasiya Təhlükəsizliyi üzrə Koordinasiya Komissiyasının hazırlayıb, ölkə rəhbərinə təqdim etdiyi bu sənəd kifayət qədər sanballı hazırlanmışdır.***

31 səhifədən və 8 bölmədən ibarət olan "Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023-2027-ci illər üçün Strategiyası" hər bölməsində ciddi məqamları vurğulayır, qlobal trendləri, mövcud vəziyyətin təhlilini, hədəf göstəriciləri, məqsədləri, prioritet istiqamətləri, təhdidlərin müəyyənləşdirilməsi və risklərin idarə edilməsini, maliyyələşdirmə mexanizmlərini bölmələrdə göstərmişdir. Sonuncu bölmədə isə "Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023-2027-ci illər üçün Strategiyası"nın həyata keçirilməsi ilə bağlı tədbirlər planı qeyd edilmiş və qurumların öhdəlikləri, vəzifələri, görəcəyi prioritet işlər cədvəldə göstərilmişdir.

Birinci bölmə möhtəşəm hesab etdiyim bu cümlə ilə başlayır: ***"Azərbaycan Respublikasının informasiya məkanının müasir təhdidlərdən qorunması milli təhlükəsizliyin əsas istiqamətlərindəndir."***

Qloballaşan dünyada informasiya təhlükəsizliyinin və kibertəhlükəsizliyin təmin olunması istər milli, istərsə də beynəlxalq səviyyədə əsas məsələyə çevrilmişdir. Başlıca məqsədin insanların, cəmiyyətin və dövlətin maraqlarının qorunması olduğu bildirilib.

İnformasiya təhlükəsizliyinin necə təmin edilməsi isə geniş diapozunlu bir cümlə ilə ifadə edilmişdir: ***"İnformasiya təhlükəsizliyi informasiya sahəsində milli təhlükəsizliyə təhdidləri müəyyən etmək, bu təhdidlərin istifadə edə biləcəyi zəifliklərin, boşluqların və təhdid nəticəsində yarana bilən fəsadların aradan qaldırılması və ya əvvəldən təyin edilmiş hədlərə qədər azaldılması üçün hüquqi, təşkilati, əməliyyat-axtarış, kəşfiyyat və əks-kəşfiyyat, elmi-texniki və təhsil, informasiya-təhlil, kommunikasiya, kadr təminatı, iqtisadi və digər sahələr üzrə tədbirləri əlaqələndirilmiş qaydada təşkil, icra, nəzarət və davamlı təkmilləşdirmək üçün qanunvericiliklə müəyyən edilən mühafizə üsulları və vasitələri ilə təmin edilir."*** Cümlə qısaca şərh edildiyi zaman görmək mümkündür ki, bu sahədə təhdidləri müəyyən etmək, təhdidlərin istifadə edəcəyi boşluqların tapılması və fəsadların aradan qaldırılması və ya azaldılması kimi proseslər aparılacaqdır. Eyni zamanda, əlaqələndirilmiş hüquqi, iqtisadi və elmi yanaşma olacaqdır.

Strategiyada açıq formada yazılır ki, o, dövlətin, cəmiyyətin və insanların müasir İKT-dən təhlükəsiz istifadəsinin təmin edilməsi üçün milli informasiya təhlükəsizliyi səviyyəsinin yüksəldilməsinə, dövlət və özəl şəbəkələrin, kritik informasiya infrastrukturlarının təhlükəsizliyinin təmin olunmasına aid tədbirlərin müəyyənləşdirilməsinin və həyata keçirilməsinin təşkilinə, həmçinin fərdi məlumatların mühafizəsinə, Azərbaycan Respublikasının Konstitusiyası ilə təsbit edilmiş insan hüquq və azadlıqlarına riayət edilməsinə daha əlverişli şəraitin yaradılmasına xidmət edir.

Strategiyanın nəyə əsaslandığını görmək mümkündür. Bu məsələ sənəddə öz yerini bu cümlə ilə tapır: "Strategiya Azərbaycan Respublikasının Konstitusiyasına və digər normativ hüquqi aktlarına, o cümlədən "Milli təhlükəsizlik haqqında", "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının qanunlarına, Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 23 may tarixli 2198 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası"na, habelə informasiya təhlükəsizliyi üzrə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə əsaslanır.

Məlumdur ki, ölkələrin beynəlxalq reytinqlərdə yüksəlməsinin və önə çıxmasının səbəblərindən biri də strategiyanın mövcudluğudur. Strategiyaların mövcudluğunu həm də ölkələrin bu tipli təhlükələrə qarşı qalxan kimi qoruyucusu hesab etmək olar. Strategiyalar 5-7-10 illik aralıqlarla dünyada baş verən yenilikləri və inkişaf tendensiyalarını nəzərə alaraq hazırlanır. Hazırda Avropa İttifaqına daxil olan 27 ölkənin, Beynəlxalq Telekommunikasiya İttifaqına üzv olan 193 ölkənin isə 108-inin müəyyən dövrləri əhatə edən informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik strategiyaları mövcuddur. Strategiya informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində Azərbaycan Respublikasında ilk strategiya olmaqla, ölkədə informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik üzrə dövlət siyasətinin tərkib hissəsidir və bu sahədə fəaliyyətin əsas məqsədlərini, prinsiplərini, istiqamətlərini və prioritet vəzifələrini müəyyən edir.

Eyni zamanda, strategiyada qeyd olunan məsələlər həm milli, həm də ümumbəşəri xarakter daşıyır, insanların, cəmiyyətin və dövlətin maraqlarını nəzərə alaraq, dövlət, özəl və qeyri-hökumət təşkilatlarına, fiziki şəxslərə şamil edilir. İnsanların, cəmiyyətin və dövlətin həyati əhəmiyyətli bütün maraqlarının daha yüksək və təkmil səviyyədə qorunması



*Bəhruz Əliyev, İnformasiya Texnologiyaları üzrə mühəndis-tədqiqatçı, Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının (AKTA) eksperti*

hazırda həm də ölkənin informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik siyasətinin əsas məqsədi kimi müəyyənləşdirilir və onun dinamik inkişaf tələblərinə cavab verməsi nəzərdə tutulur.

**Strategiyanın ikinci bölməsi olan qlobal trendlərdə isə çox maraqlı məsələlər qeyd olunub. Bəzilərini vurğulamaq yerinə düşərdi:**

***2.1.3. informasiya təhlükəsizliyi ilə əlaqəli olan sahələrlə idarəetmə sistemləri arasında harmonizasiya, qurumdaxili və qurumlararası koordinasiya, beynəlxalq əməkdaşlıq, informasiya təhlükəsizliyini istiqamətləndirmə şuraları ("cyber-savvy boards"), informasiya təhlükəsizliyi ekosistemi;***

Artıq təbii tələbə çevrilən birgə hərəkət etmək bu bənddə yer tapmışdır. Hücum edən hər zaman ən azı bir addım öndə olmağa çalışır. Qurumlararası əlaqələrin qurulması, koordinasiya və əməkdaşlıq nə qədər keyfiyyətli olsa, o qədər güclü müdafiə sistemi və ya müdafiə ekosistemi yarada bilərik.

***2.1.8. süni intellekt mühəndisliyi, idarəetmə üzrə qərarvermədə, riskləri, insidentləri müəyyənetmədə, o cümlədən funksionallıqda anomaliyaları və konfiqurasiyada sanksiyasız dəyişiklikləri dərhal aşkaretmədə, qabaqlayıcı (preventiv) və bərpaedici (korrektiv) əks-tədbirləri hazırlamaqda süni intellekt, rəqəmsal etimad ("digital trust") texnologiyaları;***

Bu bənddə geniş formada inkişaf edən süni intellekt texnologiyalarının gətirə biləcəyi təhdid və zərərlərdən qorunmaq ciddi məsələlərdən biridir. Süni intellekt kimi qərarvermə texnologiyalarının risklərindən qorunmaq və ya həmin risklərdən bir qədər də yayınmaq, qabaqlayıcı tədbirlər və həllər daha ciddi rol oynamağa başlayacaq.

***2.1.13. kibertəhdidlərə qarşı mübarizədə daha mükəmməl texnoloji həllərin tətbiqi zərurəti;***

Artan kibertəhdidlər nəzərə alınmalıdır və alınacaqdır. Bununla bağlı daha müasir metod və texnologiyaların tətbiqi ciddi əhəmiyyət daşıyır.

***2.1.15. "ransomware" hücumlarının artması və bu hücumlara qarşı intensiv maarifləndirmə təşəbbüslərinin icra olunması;***

Bir çox insanı qurbana çevirən fidyə proqram təminatı kimi adlandıra biləcəyimiz proqram təminatının zərərlərindən qorunmağın ən effektiv yollarından birisi istifadəçilərin maarifləndirilməsidir. Daimi olaraq, maarifləndirmə fəaliyyəti müxtəlif media vasitələri ilə aparılmalıdır. Əks halda məlumatsızlıqdan vətəndaşa aid məlumatlarının oğurlanması və qarşılığında müxtəlif qeyri-qanuni tələblər çoxala bilər.

Strategiyanın üçüncü bölməsi olan mövcud vəziyyətin təhlili ölkəmizin informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik istiqamətində keçdiyi yolu və tarixi göstərir. Görülmüş bir çox hüquqi və təşkilati tədbirlər göstərilmişdir. Azərbaycan aidiyyəti beynəlxalq konvensiya və proqramlara qoşulmuş, milli qanunvericilik bazası inkişaf etdirilmişdir. Strategiya sənədində qeyd edilmiş bu inkişaf ardıcıllığını elə olduğu kimi sıralamaq daha düzgün addım olardı.

**(davamı gələn sayımızda)**

## İnformasiya və rabitə sektorunun ÜDM-də payı 1.7% təşkil edib

İnformasiya və rabitə sektorunun 2023-cü ildə ÜDM-də payı 1.7%, o cümlədən qeyri-neft sektorunda 2.8% təşkil edib.

Bu barədə Nazirlər Kabinetinin 2023-cü ildə fəaliyyəti haqqında hesabatda bildirilir.

Hesabat ilində bu sahədə göstərilən xidmətlərin həcmi 2022-ci ilə nisbətən müqayisəli qiymətlərlə 16.3% artaraq 3206.5 mln. manat olub. Bu xidmətlərin 2302.3 mln. manatı və ya 71.8%-i əhali tərəfindən istehlak edilən göstərilmiş xidmətlərin 2687.9 mln. manatı və ya 83.8%-i qeyri-dövlət sektorunun payına düşüb.



Xidmətlərdən əldə edilən gəlirlərin 36.1%-i və ya 1158.5 mln. manatı mobil telefon rabitəsi sahəsində formalaşıb. Bu xidmətlərdə rabitə xidmətlərinin payı 70.3% və ya 2254.0 mln. manat təşkil edib.

## Moody's: Azərbaycan bank sektorunun mənfəətliliyi artmaqda davam edəcək

Azərbaycan bank sektorunun mənfəətliliyi 2024-cü ildə artmaqda davam edəcək.

Bu barədə "Moody's" beynəlxalq reytinq agentliyindən bildirilib. Agentlik qeyd edib ki, Azərbaycan banklarının aktivlərinin gəlirliliyinin yaxşılaşacağını, 2024-cü il üçün təxminən 3%-ə qədər artacağını gözləyir. 2023-cü ildə bu rəqəm 2.2% təşkil edib.

Qeyd edilib ki, yüksək xalis faiz gəlirləri, komissiya gəlirləri və aşağı kredit itkisi üçün ehtiyat ayırmaları bankların əməliyyat gəlirlərini dəstəkləyəcək: "Son illər iqtisadiyyatın bərpası fonunda güclü kredit tələbi kontekstində istehlak kreditləri və kiçik və orta sahibkarlığın cəlb etdiyi kreditlər üzrə bankların gəlirləri artıb. Bununla belə, Azərbaycan Mərkəzi Bankının uçot dərəcəsini endirməsi və məcburi ehtiyat tələblərinin artırılması səbəbindən xalis faiz gəlirlərinin 2024-cü ildə sabitləşəcəyini gözləyirik".

"Moody's" hesab edir ki, bu il bank sektorunda maliyyələşdirmə və likvidlik sabit olacaq. "Azərbaycan bankları əsasən müştəri depozitləri ilə maliyyələşir ki, bu da 2023-cü ildə təqribən 1.8% artıb. Sektor üzrə əmanət portfelinin artması əhalinin əmanətlərindəki 10%-lik artımın nəticəsidir. Müştərilərin depozitləri bankın ümumi öhdəliklərinin 80%-dən çoxunu təşkil edib", – Agentlik əlavə edib.




## Bank sektorunun likvid aktivləri 13 mlrd. manatı ötüb

Bu il yanvarın 1-nə Azərbaycanın bank sektorunun likvid aktivləri 13,1 milyard manat təşkil edib ki, bu da sektorun aktivlərinin 26,7%-ni təşkil edib.

Bu barədə Nazirlər Kabinetinin 2023-cü ildə fəaliyyəti haqqında hesabatda bildirilir. Hesabatda qeyd olunur ki, sektorun ani likvidlik əmsalı 52% təşkil etməklə minimum tələbi (30%) 1,7 dəfəyə yaxın üstələyib.

Likvid aktivlərin 48%-i (3,7 milyard ABŞ dolları) xarici valyutada olub.



## İpoteka kreditlərinin sayı artıb

Ötən il Azərbaycanda verilən ipoteka kreditlərinin sayında 1,8 faiz artım qeydə alınıb.

Bu barədə Nazirlər Kabinetinin 2023-cü il üzrə fəaliyyəti haqqında hesabatında qeyd edilib. Hesabata əsasən, İpoteka və Kredit Zəmanət Fondunun (İKZF) müvəkkil bankları



5,6 min ipoteka krediti verib ki, bunun da 3,9 mini adi, 1,7 mini isə güzəştli ipoteka krediti olub.

Bununla yanaşı, 2023-cü ildə Azərbaycanda yaşayış sahələrini satmaq öhdəliyi ilə kirayəyə verilmə mexanizmi barədə 1 429 müqavilə rəsmiləşdirilib.

## İşğaldan azad olunan ərazilərdə 16.7 mln. manat əkin subsidiyası verilib

Kənd Təsərrüfatı Nazirliyi tərəfindən işğaldan azad edilən ərazilər üzrə Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Laçın, Xocalı, Xocavənd, Zəngilan və Tərtər rayonlarının müvafiq ərazilərində fəaliyyət göstərən 18 kənd təsərrüfatı məhsul istehsalçısına 73.5 min hektar sahədə becərdikləri əkinlərə və çoxillik əkmələrə görə, dövlət büdcəsinin vəsaiti hesabına 16701.3 min manat məbləğində əkin subsidiyası verilib.

Bu barədə Nazirlər Kabinetinin 2023-cü ildə fəaliyyəti haqqında hesabatda bildirilir.

Hesabatda qeyd olunur ki, Tərtər rayonunun Çaylı kəndi ərazisində və Xocavənd rayonunun Məmmədderə kəndi ərazisində salınmış meyvə bağları üçün Aqrar Kredit və Inkişaf Agentliyin vəsaiti hesabına ümumi dəyəri 2.75 mln. manat olan 2 dəst damlama suvarma sisteminin alışının maliyyələşdirilməsi məqsədilə 1044.1 min manat, məbləğində güzəşt, Qubadlı rayonu Xanlıq kəndi ərazisində ümumi dəyəri 322.5 manat olan 14 dəst pivot suvarma sisteminin alışının maliyyələşdirilməsi məqsədi ilə 999.2 min manat güzəşt ayrılıb.

Hesabatda qeyd olunur ki, ümumi dəyəri 525.0 min manat olan 15 ədəd kənd təsərrüfatı texnikasının alışının maliyyələşdirilməsi məqsədilə 86.1 min manat məbləğində kredit və 183.5 min manat güzəşt ayrılıb.



# Mənalı ömrün 60-cı baharı



***İnsanlar həyata doğumla başlayırlar. İkinci ən böyük addım isə məktəbdən başlayır. Valideynlərdən sonra uşağın ilk qarşılaşdığı və güvəndiyi şəxs müəllim olur. Müəllimlər sabahın memarlarıdır. Onlar bilik və dəyərləri aşılayan, gələcəyi quran qəhrəmanlardır. Onlar təkcə kitablarda yazılanları deyil, həm də həyatı, düzgün yaşamağı öyrədirlər.***

Yüksək əqidə, məslək sahibi, gənc nəslin vətənpərvərlik ruhunda yetişdirilməsində əvəzsiz xidmətləri olan dəyərli müəllimələrimizdən biri də mənalı ömrünün 60-cı baharına qədəm qoyan Mahniyar Məmməd qızı Tarverdiyevadır. O, 1 mart 1964-cü il tarixində Qərbi Azərbaycanın Mehri rayonunun Nüvədi kəndində dünyaya göz açıb. 40 ilə yaxın zəngin pedoqoji təcübəyə malik müəllimə hazırda Bakı şəhəri, Nərimanov rayonu İltifat Hacıyev adına "Tərəqqi" liseyinin Azərbaycan dili və ədəbiyyat müəlliməsi, həmçinin metodbirləşmə sədridir.

Mahniyar müəllimə layiqincə təmsil etdiyi peşənin bütün pillələrindən şərəflə keçib – gənc sıravi müəllimlikdən tutmuş, qocaman pedaqoqadək... *Şagirdləri, tərəqqisinə ömrünün ən məhsuldar illərini həsr etdiyi "Tərəqqi" liseyinin bütün məzunları onu sevgi ilə, ehtiramla xatırlayırlar. Onun pedaqoji fəaliyyəti dövründə yüzlərlə gəncin yetişməsində, vətənə layiqli övlad kimi cəmiyyətdə öz yerini tutmasında rolu danılmazdır.* Təkcə bilikləri vasitəsi ilə deyil, xarakterindəki bütövlük, zənginlik, sözü və əməlindəki vəhdətlə də şagirdlərinə çox şey öyrədib. Azərbaycan dilinin və ədəbiyyatının mahir bilicisi olan Mahniyar müəllimə bir sıra elmi-publisistik məqalələrin müəllifidir. Müxtəlif qiymətləndirmə imtahanlarından yüksək nəticələr qazanıb, müxtəlif müsabiqələrdə çalışdığı təhsil müəssisəsini uğurla təmsil edib. *Zəngin pedaqoji təcrübəyə malik olan müəllimə metodik ustalıqla Azərbaycan dili, əsrlərlə yaşı olan qədim, eyni zamanda müasir ədəbiyyatı barədə şagirdləri məlumatlandırmağı özünün əsas missiyası, layiqli vətəndaşların yetişdirilməsinə töhfələr verməyi isə vəzifəsi hesab edir.*

Ömrünün ən dəyərli illərini təhsilin inkişafına, gənc nəslin təlim-tərbiyəsinə həsr edən ləyaqətli ana, sevimli nənə, mehriban dost, ziyalı insan, hörmətli və əzizimiz Mahniyar müəllimə!

**60 illik ziyalı ömrünüz günəş kimi parlayaraq sizdən örnək götürən hər bir kəsin yollarına şəfəq saçır. Nümunəvi davranışınız, insani keyfiyyətiniz əsl müəllim obrazının simvoludur. Simanızdakı nuranilik, çöhrənizdəki təbəssüm heç vaxt əksik olmasın! Ulu Tanrıdan sizə möhkəm cansağlığı, bahar tək ətirli ömrünüzün uzun olmasını arzulayır, yubileyinizi ürəkdən təbrik edirik!**

# Mərkəzi Gömrük Hospitalında 1 mart - Ümumdünya Mülki Müdafiə Gününə həsr edilmiş maarifləndirici tədbir keçirilib



***Mərkəzi Gömrük Hospitalında 1 mart - Ümumdünya Mülki Müdafiə Gününə həsr edilmiş maarifləndirici tədbir keçirilib. Tədbirdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəis müavini Fərid Əbilov, Mərkəzi Gömrük Hospitalının rəisi, Baş həkim Bəxtiyar Musayev, Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin və Mərkəzi Gömrük Hospitalının əməkdaşları, həkim-rezidentlər, 1 və 2 saylı Bakı Tibb kolleclərinin təcrübə keçən tələbələri iştirak ediblər.***

Tədbiri giriş sözü ilə açan Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəis müavini Fərid Əbilov Beynəlxalq Mülki Müdafiə Təşkilatı Baş Məclisinin qərarı ilə 1972-ci ildən etibarən hər il martın 1-inin bu təşkilata üzv olan bütün ölkələrdə "Ümumdünya Mülki Müdafiə Günü"nün qeyd edilməsi, Beynəlxalq Mülki Müdafiə Təşkilatı tərəfindən bu illər ərzində həyata keçirilən tədbirlər, bu günün qeyd olunmasının məqsədi və əhəmiyyəti barədə ətraflı məlumat verib. Rəis müavini Fərid Əbilov qeyd edib ki, Beynəlxalq Mülki Müdafiə Təşkilatının məqsədi dinc əhalinin mühafizəsi sahəsindəki təcrübəni yaymaq, mülki müdafiə kadrlarının hazırlanması və təkmilləşdirilməsi, habelə təbii fəlakətlər və iri qəzalar zamanı dövlətlərarası qarşılıqlı yardımı təşkil etməkdir. Rəis müavini Fərid Əbilov bildirib: *"Azərbaycan Respublikası 1933-cü ildə bu nüfuzlu humanitar təşkilatın üzvlüyünə qəbul edilmiş və onun keçirdiyi bütün tədbirlərdə fəal iştirak edir. Beynəlxalq Mülki Müdafiə Təşkilatının rəsmi ad günü sayılan «1 Mart - Ümümdünya Mülki Müdafiə Günü» 1995-ci ildən başlayaraq, hər il bu humanitar təşkilata üzv olan dövlətlərdə müvafiq kütləvi tədbirlərin keçirilməsini təşkil edir. Bu tədbirlərin keçirilməsində məqsəd ictimaiyyətin diqqətini məhz qarşıya qoyulan problemin hərtərəfli öyrənilməsinə və həllinə yönəltməkdir". Rəis müavini Fərid Əbilov çıxışının sonunda Mərkəzi Gömrük Hopitalında keçirilən tədbirin işinə uğurlar arzulayıb.*

*Mərkəzi Gömrük Hospitalının rəisi, Baş həkim Bəxtiyar Musayev mülki müdafiə işinin daim nəzarətdə saxlanılmasının, təkmilləşdirilməsinin və fövqəladə halların idarə edilməsi mexanizmlərinin gücləndirilməsinin olduqca vacib olduğunu vurğulayıb. Baş həkim Bəxtiyar Musayev çıxışında bildirib: "Ümummilli lider Heydər Əliyevin Azərbaycana ikinci dəfə qayıdışından sonra əhalinin təhlükəsizliyi sahəsində də geri dönüş yaranmış, fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması dövlət sisteminin bir hissəsi olaraq inkişaf etmiş və mülki müdafiənin dinamik inkişafı və təkmilləşdirilməsi təmin edilmişdir. Bu, ölkəmizdəki müvafiq sahənin günü-gündən təkmilləşdiyini və ulu öndərin irsinin cənab prezidentimiz tərəfindən layiqincə davam etdiriliyinin nümunəsidir. Lakin nəzərə almaq lazımdır ki, ümumi idarəetmə ilə yanaşı, mülki müdafiənin təşkilində həm də hər kəsin öz rolu vardır. Bu baxımdan aydın məsələdir ki, tibb müəssisəsi və tibb işçiləri olaraq bizim rolumuz da mülki müdafiənin təşkili aspektindən olduqca vacib əhəmiyyət daşıyır".*

Daha sonra tədbirdə Mərkəzi Gömrük Hospitalının Texniki təsərrüfat şöbəsinin rəisi Pərviz Sadıqov "Azərbaycan Respublikası mülki müdafiəsinin əsas vəzifələri və Mərkəzi Gömrük Hospitalında həyata keçirilən mülki müdafiə tədbirləri" və Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin Elmi-Təcrübi Tədris Mərkəzinin mütəxəssisi Şəhla Mirzəzadə "Fövqəladə halların təsnifatı, onların yaranma səbəbləri və fövqəladə hallarda mülki müdafiənin rolu" mövzularında təqdimatlarla çıxış ediblər. Tədbirin sonunda iştirakçıları maraqlandıran suallar cavablandırılıb, rəy və təkliflər dinlənilib.

**Dilarə Zamanova,**
**Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi**




# Dünya ölkələrinin qızıl ehtiyatları açıqlanıb (Ən çox qızıl ehtiyatı olan ölkələr bunlardır:)

| Ölkələr | Qızıl ehtiyatı |
|---|---|
| ABŞ | 8133 ton |
| Almaniya | 3352 ton |
| İtaliya | 2451 ton |
| Fransa | 2436 ton |
| Rusiya | 2332 ton |
| Çin | 2191 ton |
| İsveçrə | 1040 ton |
| Yaponiya | 845 ton |




**Azəri Light və Brent markalı neftin bir barelinin 29 fevral – 6 mart tarixlərində satış qiyməti, ABŞ dolları ilə (ICE birjası)**

**İqtisadçı ekspert: Maqsud Quliyev**

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Bəyalı Ataşov, Zahid Məmmədov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Abbas Əliyev

www.iqtisadiyyat.com

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500